# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 85 (1213) 7 may - 9 may 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Tarixin özü - Qobustan

**(əvvəli ötən sayımızda)**

**Rayonun su şəbəkəsindən danışan A.Məmmədov bildirmişdir ki, Qobustan şəhərində heç bir zaman normal su şəbəkəsi, kanalizasiya isə ümumiyyətlə olmamışdır:**

"Dünyanın böhran keçirdiyi bir zamanda ümumi dəyəri 73 milyon dollar olan layihənin şəhərimizdə başlanması və qrafik üzrə sürətlə davam etməsi cənab Prezidentimizin vətəndaşa verdiyi diqqət və qayğının bariz nümunəsidir. Bütün rayon ictimaiyyəti adından bu diqqət və qayğıya görə möhtərəm Prezidentimizə dərin minnətdarlığımızı bildiririk. Bu sahədə işlərin 2017-ci ilin birinci yarısında tam şəkildə yekunlaşması nəzərdə tutulur.



Rayonun Xilmilli kəndinin içməli su təminatının balansa götürülməsi ilə əlaqədar tərəfimizdən bir neçə dəfə məsələ qaldırılmışdır. Artıq yaxın vaxtlarda bu məsələ öz müsbət həllini tapacaqdır.

Möhtərəm Prezidentimizin qarşımıza qoyduğu mühüm məsələlərdən biri də özünümaliyyələşmənin həyata keçirilməsi, dotasiyadan asılılığın aradan qaldırılmasıdır. Rayonda sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması, sərmayələrin cəlb edilməsi ilə bağlı tapşırıqların icrasını təmin etmək məqsədilə Xüsusi Qərargah yaradılmışdır. Rayonun sosial-iqtisadi inkişafı ilə bağlı proqnozlar, habelə sahibkarların, vətəndaşların qəbulu zamanı irəli sürülən fikirlər və Rayon İcra Hakimiyyətində yaradılmış qaynar xətt vasitəsilə daxil olan məlumatlar əsasında müvafiq təkliflər hazırlanır. Artıq müxtəlif sahələri əhatə edən həlli vacib problemlər və həlli üçün təkliflər hazırlanaraq aidiyyatı üzrə təqdim edilmişdir.



Rayonumuz aqrar rayondur. Biz ilk növbədə bu sahənin inkişafı ilə nailiyyət əldə edə bilərik. Bu ilin məhsulu üçün rayonumuzda 24625 hektar sahədə taxıl əkilmişdir ki, bunun 14383 hektar sahəsi buğda, 10242 hektar sahəsi isə arpadır. 198,5 hektar sahədə isə yazlıq əkinlər əkilmişdir ki, bunun da 53,5 hektarını noxud və yem noxudu, 80,5 hektarını kartof, 44,5 hektarını tərəvəz, 20 hektarını isə yazlıq arpa təşkil edir.

Bu il rayonumuzda ziyanvericilərə qarşı ciddi mübarizə tədbirləri aparılmışdır. Bütün kəndlərə dövlət tərəfindən pulsuz dərman preparatları verilmiş, Bitki Mühafizə İdarəsi tərəfindən vətəndaşlara birbaşa köməkliklər göstərilmişdir. Bu iş ciddi şəkildə davam etdirilməlidir. Bitki Mühafizə İdarəsi tərəfindən 2050 hektar sahədə ziyanvericilərə qarşı mübarizə aparılmışdır.

Aqrar sahədə uğurlu nəticə əldə etmək məqsədilə İcra Hakimiyyətində Qərargah yaradılmış, İcra Hakimiyyətinin məsul içiləri şəhər və kəndlərə təhkim edilmişdir, bu iş daim nəzarətdə saxlanılır. Artıq rayon üzrə Kənd Təsərrüfatı İdarəsi də fəaliyyətə başlamışdır. Bu isə kənd təsərrüfatının daha səmərəli təşkilinə şərait yaradacaqdır.

Taxıl sahələrinə qulluq işləri də davam etdirilir. Birinci rübdə əkinlərə 3217 ton və ya 87,1 faiz yemləmə gübrəsi verilmişdir. Bütün sahələrin tam şəkildə gübrələnməsi qısa müddətdə başa çatdırılmalıdır. Biz bu il 60 min tona yaxın taxıl istehsalını gözləyirik.

Taxıl sahələrinin artırılması məqsədilə tərəfimizdən müvafiq təkliflər hazırlanaraq təqdim edilmişdir. Biz əkin dövriyyəsini 2000 hektar artırmaq niyyətindəyik. Bu isə əlavə 4000 tondan artıq taxıl istehsalı deməkdir. Eyni zamanda əkinlərin suvarılması ilə bağlı təklif də tərəfimizdən aiddiyyatı orqanlara təqdim edilmişdir.

**"Azərbaycanın bugünkü inkişafı, Azərbaycandakı bugünkü həyat səviyyəsi bizim gördüyümüz böyük işlərdən xəbər verir. Biz hamımız birlikdə Azərbaycanı daha da gözəlləşdirmək və Azərbaycan insanının bütün problemlərini çözmək üçün əlbir olmalıyıq. Məhz bizim birliyimiz digər problemlərimizin də tezliklə aradan qaldırılmasına öz töhfəsini verəcək".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

Bu ilin birinci rübündə 1 dövlət, 1 Bölgə Təcrübə Stansiyası və 15 fiziki şəxs tərəfindən 2900 hektar sahədə taxıl toxumu əkilmişdir. Bu orta hesabla 8000 tondan çox toxum istehsalı deməkdir ki, bunun da 4000 tondan çoxu rayonun daxili tələbatlarına, bir o qədəri də ehtiyacı olan digər rayonlara satılması üçün nəzərdə tutulur.

Rayonumuzda kənd təsərrüfatının inkişaf etmiş sahələrindən biri də heyvandarlıqdır. 2016-cı ilin birinci rübündə mal-qaranın baş sayı 0,3 faiz artaraq 30468 başa, qoyun və keçilərin baş sayı 0,2 faiz artaraq 190298 başa, quşların sayı 1 faiz artaraq 87080 başa çatmışdır.

Ötən ilin müvafiq dövrünə nisbətən ət istehsalı 3,1 faiz, süd istehsalı 2,2 faiz, yumurta istehsalı 2,5 faiz artmışdır.

Qaramalın cins tərkibinin yaxşılaşdırılması istiqamətində də işlər davam etdirilir. 2015-ci ildə 233 baş, 2016-cı ilin birinci rübündə isə 145 inək və düyə cins buğa toxumu ilə mayalandırılmışdır. Mayalanmadan nəticə etibarı ilə, 2015-ci ildə və 2016-cı ilin birinci rübündə ümumilikdə 122 baş bala alınmışdır. Bu sahədə də tədbirlər davam etdirilməkdədir.

**Prezident İlham Əliyevin tapşırığı ilə respublikamızın şəhər və rayonlarının ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Qobustan rayonundan olan 40 nəfərlik məktəbli qrupu Quba, Qusar və Xaçmaz bölgələrində olmuşlar.**

**(ardı gələn sayımızda)**

***Şamxal ŞƏBİYEV***